# NAĞIYEV DİLQƏM HEYDƏR OĞLU



Nağıyev Dilqəm Heydər oğlu 1975-ci il iyunun 24-də Mingəçevir şəhərində anadan olmuşdur. 1990-cı ildə 9 saylı Mingəçevir şəhər orta məktəbinin səkkizinci sinfini bitirdikdən sonra o, 69 saylı texniki-peşə məktəbində təhsilini davam etdirmiş, elektrik çilingəri peşəsinə yiyələnmişdir. 1993-cü il avqustun 7-də Milli Ordu sıralarına çağırılan Dilqəm Vətənin müdafiəsinə yollanır. O, Bakıdakı hərbi hissələrin birində hərbi təlim keçdikdən sonra Gəncə şəhərinə, oradan isə Füzuli döyüş bölgəsinə göndərilir. D.Nağıyevin ilk döyüş yolu da buradan başlayır. O, Əhmədbəyli, Mahmudlu, Bala Bəhmənli, Böyük Bəhmənli, Kürdmahmudlu kəndlərinin müdafiəsində böyük şücaət göstərir. Komandirləri Dilqəmin döyüş rəşadətini yüksək qiymətləndirirdilər. Elə buna görə də qısa bir vaxtda ona çavuş rütbəsi verilir. O, daim öz üzərində çalışır, silahlardan istifadə etmək qaydasını inadla öyrənirdi. Bu da onun döyüşlərdə uğur qazanmasına kömək edirdi. 1994-cü ilin oktyabrında Gəncədə dövlət çevrilişinə cəhd zamanı mühüm obyektlərin geri alınmasında Dilqəmin xidmətləri az olmamışdır. 15 mart 1995-ci ildə ikinci dəfə dövlət çevrilişinə cəhd edilərkən, Tovuz-Ağstafa zonasında əsgərlərlə birlikdə qiyamçıların ram edilməsi əməliyyatında şücaət göstərən Dilqəm Nağıyev qarşı tərəfdən açılan atəş nəticəsində həlak oldu. Mingəçevir şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Nağıyev Dilqəm Heydər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. 9 saylı Mingəçevir şəhər orta məktəbi qəhrəmanın adını daşıyır. Məktəbin önündə büstü qoyulmuşdur.